Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Layihə çərçivəsində

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti üzrə layihə çərçivəsində hazırlanıb.**

# Yaşadaq ki, Yaşaya bilək!

Qəhrəmanlıq böyük hünər, cəsarət, qürurverici amildir. Qəhrəmanlıq vətənpərvərlik, cəsurluq, fədakarlıqdır. Qəhrəmanlıq xalqı zəfərə aparan yoldur. 2020-ci ilin payızında biz bu yola yenidən çıxdıq. Düşmənə göz dağı verib böyük hünər, igidlik nümayiş etdirərək işğal altında olan torpaqlarımızı azad etmək üçün yolumuzu Qarabağ torpaqlarına saldıq. Yalnız qələbə amalı ilə döyüşlərə başladıq. Biz sülhsevər xalq olsaq da, düşmənin nümayiş etdirdiyi mövqe qarşımızda başqa bir yol qoymadı. Azərbaycanın vətənpərvər oğulları silaha sarılıb doğma yurdumuzu işğalçılardan təmizləməyə söz verdilər. **"Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hislərinin tərbiyəsi"** *mövzusunda bu həftə mən fikirlərimi "Hərbi And" oxucuları ilə bölüşəcəm.*

Qəhrəman oğullarımız daim öz doğma vətənini hərarətlə sevmiş, onun qədrini bilmiş, vətən naminə canlarını qurban verməkdən çəkinməmişlər. İgid vətən övladları doğma yurd naminə canlarından keçməklə əsl vətənpərvərlik nümunəsi göstərərək şərəfli bir iz qoyub gediblər. Bu gün milli vətənpərvərlik vətənin göz bəbəyi kimi qorunmasında təzahür edir. Qürurverici haldır ki, hər bir Azərbaycan gənci bunu çox gözəl dərk edir və gənclərimiz bütün sahələrdə əsl vətənpərvər vətəndaş olaraq üzərinə düşən vəzifənin öhdəsindən qəhrəmanlığından fəxrlə söhbət açmaq, vətənpərvər oğullarımızı daim yaşatmaq hər bir azərbaycanlının ən ümdə vəzifəsidir. Bu sayımızda söhbət açacağım qəhrəmanım da Vətən müharibəsində bir an da olsun düşünmədən əldə silah doğma torpaqlarımızın azadlığı uğrunda mübarizəyə qalxan oğullarımızdandır. Hər dəfə belə oğullar haqqında yazı hazırlayarkən azərbaycanlı olmağımla daha çox qürur duyuram. Təbii ki, onlar haqqında yazı hazırlamaq çox çətindir. Amma eyni zamanda böyük fəxrdir.

İkinci Qarabağ savaşında böyük fədakarlıq göstərərək vətənin müdafiəsi naminə canından keçən oğullarımızdan biri də Həsən Rəhim oğlu Həsənovdur. Həsənin həyat yoldaşı Qəriyyə xanımı ilə onun haqqında söhbət etmək çox çətin idi. Gözəl bir Azərbaycan xanımının xoşbəxt günləri, ailəsilə bağlı qurduğu xoş arzuları yarımçıq qalmışdı. Qarşıda bu xanımı Həsənsiz çətin günlər gözləyirdi. Lakin taleyinə yazılan bu acı onu sındırmamışdı. Həyat yoldaşının vətənpərvərliyi, qəhrəmanlığı, cəsurluğu bu gün Qəriyyə xanımın ən böyük təsəllisidir. Deyir, mən Həsənin mərdliyindən, qorxmazlığından güc alıram: "Onun vətənsevərliyi, igidliyi, fədakarlığı mənim bu həyatda möhkəm dayanmağıma ən böyük dayaq, təsəllidir. Həsən ailəmizin qüruru, fəxridir. Əslində qəhrəmanlıq əbədi yaşamaq-



layiqincə gələ bilir. Biz bunu vətənimizin müdafiəsi uğrunda düşmənlə mübarizədə daha aydın şəkildə gördük.

2019-cu ilin payız ayında bütöv Azərbaycanın doğma torpaqlarımız uğrunda Ali Baş Komandanın ətrafında birləşərək həmrəylik nümayiş etdirib sonunda qürurverici bir Zəfərə imza atdığını böyük sevinc hissilə görmüş olduq. Həmin anlar respublikamızda yaşananlar bir xalq olaraq bizi daha da ucaltdı. Bu bir daha dünyaya Azərbaycan xalqının vətənpərvərliyinin, cəsurluğunun, qəhrəmanlığının ən bariz nümunəsi kimi təqdim olundu. Bu Zəfəri bizə yaşadan igid oğullarımız hər birimizin qüruru, fəxridir. Bu oğulları hamıya tanıtmaq, onların dır. O, hər zaman nəinki ailəsinin, xalqın qəlbində yaşayacaqdır. Məncə bu, igid oğullarımız üçün ən böyük fəxarətdir ".

Xanımın bu sözləri təbii ki, məni duyğulandırdı. Həsənlə bağlı xoş xatirələrin işığında onun keçdiyi qısa yola nəzər saldıq. Qəhrəmanım 1990-cı il oktyabrın 1-də Şirvan şəhərində anadan olub. Ailənin ilk övladı olub. 1997-ci ildə Şirvan şəhər 2 saylı orta məktəbə gedib. 2008-ci ildə məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılır. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Füzuli rayonunda yerləşən "N" hərbi hissəsində xidmət edir.

Həsən uşaqlıqdan doğma torpağına, elinə, obasına bağlı insan olub. Orta məktəbdə oxuduğu illərdə vətənpərvərliyi, qorxmazlığı, vətənsevərliyi ilə seçilərdi. Vətənə olan sonsuz məhəbbəti onun düşmənə olan nifrətini daha da artırmışdı. Torpaqlarımızın işğalı ilə heç bir zaman barışmayan Həsənin hərbçi sənətinə marağı da bu səbəbdən yaranmışdı. Hərbi forma onun ən çox sevdiyi geyim idi. Hərbçilərimizə daim böyük sevgi, hörmət hissilə yanaşırdı. Bu maraq da onu hərbçi peşəsinə yönləndirdi. Hərbi xidmətdən qayıtdıqdan sonra bir müddət başqa işlərdə çalışsa da, 2017-ci ildə yenidən hərbə yazılır və müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edir. Xidməti zamanı daim işinə ciddi yanaşan Həsən vətənpərvərliyi, cəsurluğu, mərdliyilə yoldaşlarının hörmətini qazanır. Düşməndən qisasımızı alacağımız günü səbirsizliklə gözləyirdi. Və sentyabrın 27-də Vətən Müharibəsi başlayanda Həsən düşünmədən döyüşlərə qatılır. Qəhrəmanımızın döyüş yolu Füzuli rayonundan başlayır. Azərbaycan Ordusunun çavuşu olan Həsən Həsənov ilk gündən qanlı döyüşlərə qatılır. Ön sıralarda düşmənlə mübarizə aparan Həsən yaralı yoldaşlarını, şəhidlərimizi döyüş meydanından çıxarır. Həsən heç bir zaman özünü düşünmür. Yalnız qabağa getmək arzusu ilə irəliyə can atardı. Növbəti dəfə döyüş yoldaşlarını çıxararkən şəhadətə ucalır.

Onunla birgə qanlı döyüşlərdə iştirak edən Nurlan Əlizadə Həsən haqqında danışarkən səsi titrədi. Deyir, Həsən haqqında çox danışa bilərəm: "Çox cəsur, fədakar, əsl vətənpərvər insan idi. bir an da olsun düşünməzdi ki, arxada qalsın. Yalnız irəli getməyi düşünürdü. Əslində o, öndə getməli deyildi. Lakin onu arxada qoymaq da olmazdı. Çünki torpaqlarımızın azad olunmasını görmək onun ən böyük arzusu idi. Əsl fədakar, igid oğlan idi. Çox gözəl yoldaşlığı var idi. Heç kimə imkan verməzdi ərazini tək keçsin. Mütləq həmin insanın yanında olmalı idi. Şəhid olan gün 70 nəfərin həyatını xilas edir. Çox təəssüflər ki, özü şəhidlik zirvəsinə ucalır. Əfsuslar olsun ki, biz Həsən kimi vətənpərvər, qəhrəman bir oğul itirdik".

Bu gün Həsənin ailəsində iki oğul övladı böyüyür. Ömər və Həsəncamal. Təəssüflər olsun ki, Həsən kiçik oğlunu görə bilmədi. Qəriyyə xanım kiçik oğlunun adını həm Həsənin adını yaşatmaq üçün, həm Həsənin istəyilə Həsəncamal qoyur. Deyir, mən övladlarımı Həsənin adına layiq böyütməyi özümə borc bilirəm: "Ümidvaram ki, Həsəncamal həm atasının adını, həm də atasının seçdiyi Camal adını layiqincə daşıyacaq. Onun kimi mərd və cəsarətli oğul olacaq".

Qəriyyə xanım söhbət zamanı Həsənin gözəl insani keyfiyyətlərindən də söz açdı. Belə bir həyat yoldaşını itirməyin çox ağır olduğunu deyən xanım bundan sonra ailəmizin onun adına layiq olmasında nə lazımdırsa, edəcəyini dedi: "İlk növbədə, övladlarımın tərbiyəsində daha diqqətli olacam. Çalışacam, onlar da ataları kimi vətənpərvər, qorxmaz, vətənsevər, cəsur olsunlar. Milli ruhda, adət-ənənələrimizə uyğun şəkildə tərbiyə alsınlar. Atalarının adını layiqincə yaşada bilsinlər".

Həsən qısa ömür yaşamasına baxmayaraq, hər kəsin qəlbində özünəməxsus yer qazanmağı bacarıb. Ailənin böyük övladı olaraq bütün yükü üzərində daşıyıb. Hər zaman bütün məsələlərdə ədalətli və dürüst davranmağa üstünlük verib. Belə bir ailə başçısının yoxluğu Qəriyyə xanım üçün böyük zərbədir. Amma buna baxmayaraq, Həsənin ona qoyduğu əmanətləri göz bəbəyi kimi qorumaq da bu gün onun ən ümdə vəzifəsidir.

Beləcə, əziz oxucularımız, bu da bir qəhrəmanın keçdiyi qısa ömür yolu. Həyat nə qədər şirin olsa da, təəssüflər ki, ölüm insanın qaça bilməyəcəyi bir tale yazısıdır. Lakin Allahın elə seçilmiş bəndələri var ki, onlar ölmür. Cismən bu dünyanı tərk etsələr də, ruhən əbədiyyətə qovuşurlar. Bu, ölümlərin ən şərəflisidir. Bu, müqəddəs şəhidlik zirvəsidir ki, hər kəsə belə ölüm nəsib olmur. Həsən də Allahın seçilmiş bəndələrindəndir. Vətənpərvərliyi, qəhrəmanlığı, mərdliyi, cəsurluğu ilə əbədiyyəti qazandı. Torpaqlarımızın azadlığı uğrunda gedən qanlı döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi göstərərək ən ali zirvəni fəth etdi. Şəhadətə ucalıb ən uca zirvədə dayanmağı bacardı. Həsənin Vətən Müharibəsində göstərdiyi qəhrəmanlıq Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirildi. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamı ilə Həsən Həsənov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib. Cənab Prezidentin digər sərəncamı ilə Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Həsən Həsənov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

Bəli, qəhrəmanlarımızı yaşatmaq, onların adını hər zaman uca tutmaq hər birimizin ən ümdə vəzifəsidir. Burda bir məqamı unutmayaq, Yaşadaq ki, Yaşaya bilək!

***Elnurə İSAXAN***

***Məqalə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə hazırlanıb***